# İrəvanda "Nemezis" abidəsinin açılması Ermənistanın terror əməllərinin təbliğatıdır

Azərbaycan Xarici İşlər Nazirliyi Ermənistanda "Nemezis" terror əməliyyatına həsr olunmuş abidə ilə əlaqədar bəyanat yayıb. AZƏRTAC bəyanatı təqdim edir.

"Aprelin 25-də Ermənistanın paytaxtı İrəvan şəhərində "Nemezis" terror əməliyyatına həsr olunmuş abidənin açılmasını qətiyyətlə pisləyirik. Bu abidənin Ermənistanın aidiyyəti dövlət qurumlarının icazəsi və təsdiqi ilə hazırlanması, habelə açılış mərasimində hakim partiyanın üzvü olan Ermənistan merinin müavini və digər rəsmilərin də iştirak etməsi Ermənistan tərəfindən terrorçuluq siyasətinin təşviq olunması və tarixboyu həyata keçirdiyi terror əməllərinin təbliğatıdır.

Azərbaycan Xalq Cümhuriyyəti və Osmanlı dövlət xadimlərini hədəf alan "Nemezis" terror əməliyyatı zamanı Osmanlı dövlətinin rəsmi şəxsləri ilə yanaşı, 1920-1922-ci illərdə Azərbaycanın keçmiş Baş naziri Fətəli xan Xoyski, Azərbaycan parlamentinin keçmiş sədr müavini Həsən bəy Ağayev, Azərbaycanın keçmiş daxili işlər naziri Behbud xan Cavanşir, Azərbaycanın keçmiş Baş naziri Nəsib bəy Yusifbəyli qətlə yetiriliblər.

Hər kəsə bəllidir ki, Ermənistanda dövlət siyasəti səviyyəsində irəlilədilən terrorçuluq, ASALA və digər erməni terror təşkilatları 1970-1980-ci illərdə dünyanın 22 ölkəsində 235-dən çox terror aktı törədərək 24 türk diplomatını qətlə yetiriblər. 1980-ci illərin sonundan etibarən Ermənistan tərəfindən Azərbaycana qarşı metro və avtobusların partladılması daxil olmaqla, 30-a yaxın genişmiqyaslı terrorçuluq aktları törədilib, mülki əhali terrorçuların hədəfinə alınıb

Azərbaycanlılara qarşı Xocalıda soyqırımının törədilməsində ASALA və onun altqolları olan "Arabo" və "Aramo" terrorçu qruplarının yaxından iştirak etməsi məlumdur. Türkiyə diplomatı Kamal Arıkanı qətlə yetirən erməni terrorçu, ASALA üzvü Ambik Sassunyanın Ermənistanda qəhrəmanlaşdırılması, Ermənistanda nasizmin təbliğinin dövlət siyasətinin tərkib hissəsi olması, SS generalı Njde Qaregin və "Dro" ləqəbi ilə tanınan Drastamat Kanayanın "milli qəhrəman" kimi təbliğ edilməsi, onların adlarının əbədiləşdirilməsi və "Njdeizmin" təbliği Ermənistan rejiminin əsl mahiyyətini açıq şəkildə göstərir.

Tarixboyu radikal erməni qruplarının istifadə etdiyi terrorçuluğun Ermənistanda dövlət səviyyəsində dəstəklənməsi beynəlxalq ictimaiyyət tərəfindən qətiyyətlə qınanmalı, bölgədə sülh və əmin-amanlığın təmin edilməsi üçün Ermənistan tərəfindən terrorçuluq siyasətinə son qoyulmalıdır.

Erməni terrorizmi, ekstremizmi, aqressiv separatizmi və irqi ayrıseçkiliyin bütün forma və təzahürlərinə qarşı birmənalı və ikili standartlardan kənar şəkildə qəti mübarizə aparılmalıdır.

Ermənistanın bu cür addımları bu ölkənin Azərbaycan və Türkiyə ilə davam edən normallaşma danışıqları ilə bağlı iddia etdiyi "səmimiyyətini" və "xoş iradəsini" ciddi sual altında qoyur.

Qeyd edək ki, sülh və barışığa aparan yol cinayət və səhvlərin daha çox tərənnüm edilməsindən deyil, bunların etiraf olunmasından keçir".

Azərbaycan.- 2023.- 27 aprel.- S. 9.